# Azərbaycanın suveren ərazisində hər hansı təhlükə törədilməsi yeni antiterror əməliyyatını şərtləndirir

"Ötən həftə qondarma rejimin rəhbəri Araik Arutyunyan çıxış edərək Qarabağda öz müqəddəratını təyinetmə niyyətlərindən imtina etməyəcəklərini, lazım gələrsə savaşacaqlarını bəyan etdi. Beləliklə, Azərbaycanın həyata keçirdiyi reinteqrasiya siyasətinə qarşı çıxan xunta rejiminin rəhbəri öz taleyini müəyyənləşdirdi - o, terrorçu dəstəbaşıdır və gec-tez öz layiqli cəzasını alacaq. Bu əsnada Ermənistanda 2020-ci ildən bəri inkişaf etdirilməyə çalışılan sülh prosesindən uzaqlaşma meyilləri sezilir. 2022-ci ilin oktyabrında Praqada və Soçidə, 2023-cü ilin iyulunda Brüsseldə Qarabağı Azərbaycanın ərazi vahidi sayan Nikol Paşinyan bu gün dövlətimizin qanuni və legitim olaraq təsis etdiyi Laçın dövlət sərhəd-buraxılış məntəqəsinin təsisinə qarşı çıxaraq, "davam edən blokada" ilə bağlı əsassız iddialar səsləndirərək Qarabağda separatizmi silah təchizatı ilə dəstəkləyib sülh və reinteqrasiya prosesinə zərbə vurur".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin (STM) baş məsləhətçisi Şəhla Cəlilzadə söyləyib.

Araik Arutyunyanın açıqlamasından sonra Ermənistandan Laçın dəhlizi istiqamətində silahlı yürüş şousunun baş tutduğunu deyən Ş.Cəlilzadə bildirib: "Hazırda Ermənistan Laçın dövlət sərhəd-buraxılış məntəqəsinin ləğvi və yolun açılması tələbini (halbuki Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) vasitəsilə sivillərin daşınması üçün açıqdır) BMT Təhlükəsizlik Şurasında (TŞ) müzakirəyə çıxaracağı anonsunu verib. Bir ehtimal odur ki, belə bir müzakirə baş tutmayacaq, bəs olarsa nə baş verə bilər? Ermənistan hazırda beynəlxalq dəstək qazanmaq üçün siyasi danışıqlar aparır. Azərbaycana bu mövzuda əsas dəstək Türkiyədən gəldi. Türkiyə Xarici İşlər Nazirliyi bəyanat yayaraq Laçın dövlət sərhəd-buraxılış məntəqəsinin təsisini Azərbaycanın suveren, legitim haqqı adlandırdı. Həmçinin Ermənistanı sülh prosesinə sadiq qalmağa çağırdı. Təəssüf ki, biz bənzər mövqeyi bir çox dövlətlər və təşkilatlardan görmürük.

Yəqin ki, BMT TŞ-də müzakirə baş tutarsa, avqustun 2-də BMT Baş Katibliyinin sözçüsünün dediklərinə bənzər açıqlamalar veriləcək: "2023-cü il 22 fevral tarixli Beynəlxalq Ədalət Məhkəməsinin qərarını icra etməyə çağırırıq". Məhkəmə qərarında Laçın dəhlizi üzrə insanların, sivil nəqliyyat vasitələrinin və yüklərin maneəsiz daşınması tələbi irəli sürülmüşdü. Laçın dövlət sərhəd-buraxılış məntəqəsinin ləğvi tələbindən isə söhbət gedə bilməz. Çünki Laçın Azərbaycanın suveren ərazisidir. BMT TŞ tərəfindən burada təsis edilən postun ləğvi tələbi tamamilə qeyri-hüquqi, qanunsuz olar və beynəlxalq hüququn tapdalanması, yerlə bir edilməsi anlamına gələr. Bu mövzuda beynəlxalq dəstəyi çoxaltmaq üçün diplomatik kanallar vasitəsilə kommunikasiyalar artırılmalı, dünya ictimaiyyətinin diqqətinə bənzər hadisələr - presedentlər çatdırılmalıdır.

Ukrayna-Rusiya savaşında Qərbin Ukraynanı dəstəklədiyini xatırladan STM-in baş məsləhətçisi deyib: "Eyni zamanda Ukraynanın Krım körpüsünü vurmasını, Krımda 3 milyonadək əhalinin blokadaya alınması ehtimalını normal qarşılayır. Nəticə olaraq, ikili standartlara yol verilməməsi tələb olaraq dünya ictimaiyyəti qarşısında qaldırılmalıdır. İndiki şəraitdə nə edə bilərik? Birincisi, Ağdam-Xankəndi yoluna humanitar konvoylar göndərərək şouya eyni tərzdə cavab verilə bilər. Biz öz sakinlərimizi (yəni erməniəsilli Azərbaycan vətəndaşlarını) darda qoymarıq mesajı verilməklə, Ermənistanın saxta "soyqırımı siyasəti" iddialarına cavab vermiş olarıq. Həqiqi soyqırımın 1989-1994, 2020-ci illərdə yaşanan real faktları beynəlxalq ictimaiyyətin diqqətinə bir daha çatdırıla bilər. İkincisi, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın hüquqi qüvvəsini itirməsinə dair prosedur başladıla bilər. 2025-ci ildə Rusiya sülhməramlılarının Qarabağda fəaliyyət müddəti bitəcəyi üçün yeni sənədə ehtiyac olacaq. İndidən isə yeni mətn razılaşdırıla bilər. Bundan sonra Laçın dövlət sərhəd-buraxılış məntəqəsi sivillərin keçidi üçün daim fəaliyyətdə olacaq, iqtisadi yükdaşımalar üçün isə alternativ Azərbaycan tərəfindən artıq səsləndirilib - Ağdam-Xankəndi yolu. Ermənistanın isə Azərbaycanın suveren ərazisində hər hansı təhlükə törətməsi yeni antiterror əməliyyatını şərtləndirir".

Azərbaycan. - 2023.- 17 avqust.- S.6.